## Riyaziyyat

1. Üçbucağın medianları cəmi 24 sm olarsa, medianların kəsişmə nöqtəsindən üçbucağın təpələrinə qədər məsafələrin cəmi neçə sm-dir?
   A) 12 B) 16 C) 18
   D) 20 E) 22

2. Hesablayın: $32^{\frac{2}{5}}+9^{\frac{1}{2}}$
   A) 1 B) 3 C) 5 D) 7 E) 9

3. Kəsrlərin məxrəcini irrasionallıqdan azad edərək sadələşdirin:
   $$\frac{2}{\sqrt{3}-1}+\frac{13}{4+\sqrt{3}}$$
   A) 15 B) 5 C) 11 D) 8 E) 6

4. Bir qrupda qızların sayı oğlanların sayının $\frac{5}{9}$ hissəsini təşkil edir.Oğlanlar qızlardan neçə faiz çoxdur?
   A) 80% B) 40% C) 75%
   D) 45% E) 60%

5. İki paralel düz xətti üçüncü düz xətlə kəsdikdə alınan daxili birtərəfli bucaqların nisbəti 2:3 nisbətindədir. Bu bucaqlardan böyüyü neçə dərəcədir?
   A) $110^0$ B) $105^0$ C) $108^0$
   D) $96^0$ E) $85^0$

6. ABC bərabərtərəfli üçbucağının BC tərəfinə çəkilmiş paralel düz xətt AB tərəfini D nöqtəsində, AC tərəfini isə E nöqtəsində kəsir. BD=DE=6 sm olarsa, ABC üçbucağının perimetrini tapın.
   A) 36 B) 24 C) 3 D) 18 E) 42

7. Şəklə əsasən $\beta + 2\alpha$-nı tapın:




   A) $100^0$ B) $70^0$ C) $60^0$
   D) $90^0$ E) $80^0$

8. $a \le 0, b \ge 0$ olarsa, $|2-a|+|a-b|+2a-2$ ifadəsini sadələşdirin.
   A) $b$ B) $4a$ C) $4a$-$b$ D) 4-$b$ E) 0

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

9. Kəsri ixtisar edin: $\dfrac{x^2-x-6}{x-3}$

A) x+2 B) x-2 C) x+4
D) x-6 E) x-1

10. Düzbucaqlı üçbucağın iti bucaqlarından biri 20° olarsa, düz bucaq təpəsindən çəkilən medianla hündürlük arasındakı bucağı tapın.

A) $10^0$ B) $50^0$ C) $40^0$
D) $35^0$ E) $45^0$

11. $\overline{abc4}$ dördrəqəmli ədədi 4-ə tam bölünürsə *c*-nin ən böyük qiymətini tapın.

A) 9 B) 8 C) 7
D) 6 E) 5

12. $\sqrt{3}=a$ və $\sqrt{5}=b$ olarsa , $\sqrt{135}$ ədədini *a* və *b* ilə ifadə edin.

A) $2ab$ B) $3ab$ C) $4ab$
D) $5ab$ E) $6ab$

13. 12 nəfərlik bir qrupdan iki nəfəri neçə üsulla seçmək olar?

A) 66 B) 45 C) 33
D) 15 E) 36

14. $A \subset B,\ n(B) = 18,\ n(B/A) = 7$ olarsa, $n(A)$-nı tapın.

A) 25 B) 14 C) 17
D) 11 E) 12

15. ABC üçbucağında AD tənböləndir. 4AB=5AC, BC=27 olarsa, DC-ni tapın.




A) 9 sm B) 18 sm C) 21 sm
D) 6 sm E) 12 sm

16. $a-b-c=0$ olarsa, $a(a-c)(a-b)$ ifadəsini sadələşdirin.

A) $abc$ B) $ab$ C) 1
D) $-2$ E) 3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

17. Bərabəryanlı üçbucağın oturacağı 10 sm, perimetri isə 33 sm-dir. Onun yan tərəfini tapın.
A) 13 B) 10,5 C) 11
D) 12 E) 11,5

18. $\Delta ABC$ - də BC=12 sm-dir.
$\angle A = 30^0$, $\angle C = 45^0$ olarsa, $AB$-ni tapın.
A) $8\sqrt{6}$ B) $6\sqrt{3}$ C) $12\sqrt{2}$
D) $5\sqrt{2}$ E) $4\sqrt{6}$

19. Hesablayın: $\frac{1}{5\cdot 7}+\frac{1}{7\cdot 9}+\frac{1}{9\cdot 11}+\frac{1}{11\cdot 13}+\frac{1}{13\cdot 15}$
A) $\frac{1}{11}$ B) $\frac{1}{15}$ C) $\frac{1}{9}$
D) $\frac{1}{5}$ E) $\frac{1}{13}$

20. Düzbucaqlı üçbucağın hipotenuzu 9 sm olarsa, hipotenuza çəkilmiş medianın uzunluğunu tapın.
A) 3 B) 4,5 C) 4
D) 3,5 E) 5

21. $a=6x+20^0$ bucağı ilə $b=100^0-2x$ bucağı uyğun tərəfləri paralel olan bucaqlar olarsa, $x$-in ala biləcəyi qiymətlərin cəmini tapın.
A) $40°$ B) $80°$ C) $25^0$ D) $70°$ E) $50°$

22. $x^2-4y^2+x-2y$ çoxhədlisini vuruqlara ayırın.
A) $(x-2y)(x+2y+1)$ B) $(x+4y)(x-2y)$
C) $(x-3y)(x+2y-1)$ D) $(x+2y)(x-2y)$
E) $(2x+3)(x-y)$

***Açıq tipli test sualları:***

23. $a$ natural ədədinin üç sadə böləni və dörd sadə vuruğu var. $a$-nın neçə natural böləni var?

24. $a$-nın hansı qiymətində $x^2-x+a$ üçhədlisini ikihədlinin kvadratı şəklində göstərmək olar?

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BilikTeam1

25. Hesablayın: $\sqrt{6-\sqrt{11}}\cdot\sqrt{6+\sqrt{11}}$

26. $(x+4)(x+2)$ ifadəsinin ən kiçik qiymətinin modulunu tapın.

27. Uyğunluğu müəyyən edin.
1. $a=\sqrt{3}, b=\sqrt[3]{4},\ c=\sqrt[6]{30}$
2. $a=\sqrt{5}, b=\sqrt[4]{20},\ c=\sqrt[8]{500}$
3. $a=\sqrt{2}, b=\sqrt[6]{8}, c=\sqrt[12]{64}$

a. $a>b>c$
b. $a=b=c$
c. $c>a>b$
d. $a>c>b$
e. $a=b>c$

**Situasiya**

Sinifdə 12 oğlan 8 qız oxuyur.Onlar qarşıdan gələn konfransa hazırlıqla bağlı dərsdən sonra iclas keçirdilər.İclasda sinif rəhbəri də iştirak edirdi.

28. Uşaqların orta yaşı 16, sinif rəhbəri ilə birlikdə isə orta yaş 17-dir.Sinif rəhbərinin neçə yaşı var?

29. İclasda iştirak edən şagirdlərdən konfransda çıxış etmək üçün təsadüfi olaraq bir şagird seçilir.Seçilən şagirdin qız olma ehtimalını tapın.

30. Oğlan və qızlardan tərkibləri eyni olan (eyni sayda qız və eyni sayda oğlan) ən çox neçə komanda düzəltmək olar?

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

## Coğrafiya

31. Platforma sahəsində yerləşən məntəqələr:




A) 2, 3, 5 B) 4, 5, 6 C) 1, 2, 3
D) 3, 4, 6 E) 2, 3, 4

32. Qütb gecə və gündüzlərinin müşahidə olunduğu ölkələr qrupunu müəyyən edin.
1. İsveç 2. Çili 3. İrlandiya
4. Yeni Zelandiya 5. Kanada 6. Norveç
A) 1, 5, 6 B) 4, 5, 6 C) 1, 3, 5
D) 2, 3, 6 E) 2, 3, 4

33. II saat qurşağının qərb sərhədi ilə V saat qurşağının şərq sərhədi arasındakı vaxt fərqi:
A) 4 saat B) 2 saat C) 3 saat
D) 2,5 saat E) 12 saat

34. 21 mart tarixində Günəş şüalarının düşmə bucağının düzgün verildiyi variantı seçin.




35. Litosfer tavalarının konvergent sərhədlərində yerləşən fəaliyyətdə olan vulkanlar:
A) Orisaba, Erebus, Hekla, Kotopaxi
B) Mauna-Loa, Kilimancaro, Kazbek, Böyük İşıqlı
C) Fudziyama, Elbrus, Çimboraso, Etna
D) Etna, Fudziyama, Vezuvi, Krakatau
E) Kotopaxi, Kazbek, San-Pedro, Torağay

36. Hansı materikdə tektonik proseslər çox zəif baş verir.
A) Avstraliya B) Şimali Amerika
C) Cənubi Amerika D) Afrika
E) Avrasiya

37. A nöqtəsinin mütləq hündürlüyü 100 m-dir. B və C nöqtələrinin hündürlük fərqini hesablayın.




A) 100 m B) 250 m C) 75 m
D) 500 m E) 125 m

38. İntruziv süxurlar necə yaranır?
A) Canlı orqanizmlər tərəfindən süxurların parçalanması nəticəsində
B) Temperaturun dəyişməsi ilə süxurların parçalanması nəticəsində
C) Dərinlikdə yüksək temperatur və təyziq şəraitində süxurların çevrilməsi nəticəsində
D) Maqmanın Yer qabığı daxilində soyuması nəticəsində
E) Aşınma məhsullarının bir yerdən başqa yerə aparılması nəticəsində

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

The/BirlikTeam

39. $60^0$ şimal enliyində yerləşən Oslo şəhərinə Günəş şüalarının düşmə bucağı $53,5^0$ olarsa, bu zaman ekvatora Günəş şüalarının düşmə bucağı nə qədər olar?
A) $73,5^0$ B) $60^0$ C) $23,5^0$ D) $90^0$ E) $66,5^0$

40. Alp qırışıqlığı zamanı yaranmış dağlar:
A) Altay, Tyanşan, Kordilyer
B) Qayalı dağlar, Skandinaviya , Kunlun
C) Atlas, Əjdaha, Böyük Suayırıcı
D) And, Qafqaz, Sahil silsiləsi
E) Karpat, Apennin, Ural

41. Tavaların hərəkəti nəticəsində yaranan relyef formalarının doğru verildiyi sıraları seçin.

| | Litosfer tavalarının hərəkəti | Yaranan relyef formaları |
|---|---|---|
| 1 | Ərəbistan - Avrasiya | Qafqaz dağları |
| 2 | Hindistan - Avrasiya | Himalay dağları |
| 3 | Şimali Amerika - Avrasiya | Kordilyer dağları |
| 4 | Naska – Cənubi Amerika | Sahil silsiləsi |
| 5 | Sakit okean – Şimali Amerika | Aleut novu |
| 6 | Afrika - Somali | Orta Hind silsiləsi |

A) 1,4,5 B) 2,3,5 C) 1,2,5
D) 2,4,6 E) 1,3,6

42. Günəşin zenit vəziyyətinin müşahidə olunduğu enlik üçün səciyyəvi *deyil:*




A) Mülayim və tropik işıqlanma qurşaqlarının sərhədidir
B) 23 sentyabrda gecə və gündüz bərabər olur
C) Coğrafi qütblərdən eyni məsafədə yerləşir
D) Üzərində Günəş ildə bir dəfə zenitdə olur
E) Günəş şüalarının ən kiçik düşmə bucağı $43^0$ –dir

43. Metamorfizm prosesi nəticəsində yaranmış süxurlar:
1. Mərmər 2. Bazalt 3. Kvarsit
4. Daş kömür 5. Qneys 6. Əhəngdaşı
A) 2, 4, 5 B) 1, 3, 5 C) 1, 2, 6
D) 1, 4, 6 E) 2, 3, 5

44. Klasteri tamamlayın.




A) 1- Kriptozoy, 2- Paleogen, 3- Antropogen, 4- Mezozoy
B) 1- Kriptozoy, 2- Mezozoy, 3- Silur, 4- Perm
C) 1- Fanerozoy, 2- Kembri, 3- Ordovik, 4- Təbaşir
D) 1- Kriptozoy, 2- Paleozoy, 3- Daş kömür, 4- Antropogen
E) 1- Fanerozoy, 2- Paleozoy, 3- Perm, 4- Paleogen

45. Yerli və qurşaq vaxtları üst-üstə düşməyən məntəqələrin coğrafi uzunluqlarını müəyyən edin.
1. 75° ş.u. 2. 55° ş.u. 3. 95° q.u.
4. 105° q.u. 5. 120° ş.u. 6. 110° q.u.
A) 1, 4, 5 B) 3, 5, 6 C) 2, 3, 5
D) 2, 3, 6 E) 1, 4, 6

46. Paleozoy erasında baş verən mühüm hadisələr:
1. Alp-Himalay dağlıq qurşağının yaranması
2. Pangeyanın Lavrasiya və Qondvana qurularına parçalanması
3. Çılpaqtoxumlu bitkilərin, suda-quruda yaşayanların yaranması
4. Aralıq, Qara, Xəzər və Aral dənizlərinin bir-birindən ayrılması
5. Neotektonik hərəkətlər nəticəsində kataklizmlərin baş verməsi
6. Kaledon dağəmələgəlməsinin baş verməsi
A) 1,2,5 B) 2,3,6 C) 1,2,4
D) 1,4,6 E) 1,3,6

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

47. Xəritə-sxemdə verilmiş A nöqtəsindən uçan təyyarə əvvəlcə $270^0$ azimutla $60^0$, sonra isə $180^0$ azimutla 4440 km yol qət etmişdir. Onun çatdığı məntəqənin coğrafi koordinatlarını müəyyən edin.




A) $20^0$ şm.e. $40^0$ ş.u.
B) $20^0$ c.e. $60^0$ ş.u.
C) $40^0$ şm.e. $10^0$ ş.u.
D) $60^0$ c.e. 10 ş.u.
E) $10^0$ şm.e. $50^0$ ş.u.

48. 23 sentyabrdan 21 marta qədər qütb gecələrinin müşahidə olunduğu enlik:
A) Şimal tropik xətti B) Şimal qütbü
C) Cənub qütb dairəsi D) Cənub qütbü
E) Şimal qütb dairəsi

49. Xəritə-sxemdə təsvir olunmuş ada-dövlətə aid ***olmayan*** əlamətlər:



1. Subduksiya zonasında yerləşir.
2. Şərqi Afrika seysmik qurşağında yerləşir
3. Üzərində Günəş zenitdə olmur.
4. Litosfer tavalarının divergent sərhədində yerləşir.
5. Yerli vaxtı Bakının yerli vaxtından irəlidir
6. Ən böyük adasında Hekla vulkanı yerləşir
A) 1, 2, 5 B) 1, 3, 5 C) 2, 4, 5
D) 3, 4, 6 E) 2, 4, 6

50. Bakı şəhərində 08 dekabr saat 11:52-dir. Eyni enlikdə yerləşən A məntəqəsində isə bu zaman saat 16:32-dir. Məntəqələr arasındakı ən qısa məsafəni hesablayın.
A) 5978 km B) 5555 km C) 7770 km
D) 5124 km E) 2562 km

51. Aşağıdakılardan hansı doğrudur ?
1. Silindrik proyeksiyada yüksək enliklər böyük təhriflə verilir
2. Ekvatorboyu ərazilərin xəritələri konus proyeksiyası ilə tərtib edilir
3. Bütün xəritələrdə forma və uzunluq təhrifləri qalır
4. Azimutal proyeksiyada müstəviyə toxunan nöqtədən kənarlara doğru təhrif azalır
5. Miqyas kiçildikcə təhrif artır
6. Miqyas böyüdükcə təhrif artır
A) 1, 4, 5 B) 1, 3, 5 C) 3, 4, 5
D) 2, 4, 6 E) 2, 3, 6

52. Azərbaycanın 1:500000 miqyaslı oroqrafik xəritəsinin miqyasına və məzmununa görə hansı xəritə tipinə aid olduğunu müəyyən edin.
A) İri miqyaslı; ümumcoğrafi xəritə
B) Orta miqyaslı; kompleks xəritə
C) İri miqyaslı; kompleks xəritə
D) Kiçik miqyaslı; tematik xəritə
E) Orta miqyaslı; tematik xəritə

*Açıq tipli test sualları:*

53. Xəritənin riyazi əsasına aiddir:
1. miqyas 2. hidroqrafik şəbəkə
3. relyef vahidləri 4. kartoqrafik proyeksiya
5. dərəcə toru 6. izoxətlər

54. Həqiqi sahəsi 588 000 km$^2$ olan Madaqaskar adasının xəritədəki sahəsi 4,8 sm$^2$ -dir. Xəritədə adanın şimal ucqar nöqtəsi ilə cənub ucqar nöqtəsi arasındakı məsafə 4,5 sm-dir. Həqiqi məsafəni km-lə hesablayın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

55. Mülayim işıqlanma qurşağı üçün doğru olan ifadələri seçin.
1. Günəş ildə iki dəfə zenitdə olur
2. Gecə və gündüzün adi növbələşməsi pozulur
3. Qütb gecə və gündüzləri müşahidə edilir
4. Mövsümi fəsil dəyişkənliyi aydın seçilir
5. İl ərzində gecə və gündüzün uzunluqları arasında böyük fərq yaranır
6. Bütün materikləri əhatə edir

56. Geoloji dövrləri qədimdən cavana doğru ardıcıl düzün.
1. Paleogen 2. Trias 3. Devon
4. Silur 5. Perm

57. Yerin daxili quruluşunun təsvirinə əsasən uyğunluğu müəyyən edin.




a. Mantiya qatı ilə əhatə olunmuşdur
b. Dəmir və nikeldən təşkil olunmuşdur
c. Çökmə, qranit, bazalt laylarından ibarətdir
d. Qalınlığı 1-90 km –dir
e. Əsasən ərimiş və kipləşmiş (sıxılmış) maddədən ibarətdir

***Sizə təqdim olunmuş situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 58 – 60 saylı tapşırıqları cavablandırın.***
***Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***

*Coğrafi koordinatları 80° şm.e və 80° q.u olan məntəqədən eyni meridian çevrəsi üzrə hərəkətə başlayan səyyah əvvəl 0° azimutla, sonra isə 180° azimutla hərəkət edərək ümumilikdə 3330 km yol getmişdir. Səyyahın* ***çatdığı məntəqəyə aid*** *aşağıdakı sualları cavablandırın.*

58. Məntəqənin coğrafi koordinatlarını qeyd edin.

59. Yerləşdiyi işıqlanma qurşağını və ona aid iki xüsusiyyəti qeyd edin.

60. a) Hansı saat qurşağında yerləşir ?

b) 22 iyunda bu məntəqəyə günəş şüalarının düşmə bucağını hesablayın.

## Tarix

61. Məntiqi ardıcıllığı tamamlayın:
*1. Gil qab düzəldən ustaların daha yüksək istilik əldə etməyi öyrənməsi*
*2. Qarabağın dağlıq hissəsində zəngin mis yataqlarının aşkarlanması*
*3.........................................................................*
A) Köçmə maldarlığın meydana gəlməsi
B) Saxsı qabların hazırlanmağa başlaması
C) Azərbaycanda gəmiçiliyin meydana gəlməsi
D) Eneolit dövrünün başlanması
E) Dulusçuluq sənətinin yaranması

62. Uyğunluq ***pozulmuşdur:***
A) Yustinian – Balkan yarımadasında bəzi əraziləri slavyan və türk tayfalarının məskunlaşması üçün güzəştə getdi
B) Vikinqlər – Qədim Roma imperiyasının sərhədlərini bərpa etdi
C) Böyük Karl – İspaniyada ərəblərlə müharibə apardı
D) Qraflar- Frank dövlətində vilayətləri idarə edən kralın nümayəndələri idi
E) Karl Martel – Puatye döyüşündə Ərəb qoşunlarını məğlub etdi

63. Paytaxtları ulduz ilə işarələnmiş dövlətlər üçün oxşar cəhət ***deyil:***




A) Makedoniya imperiyasının tərkibində olmaları
B) Roma hücumlarına məruz qalmaları
C) Yunan tanrılarına sitayiş etmələri
D) E.ə III əsrdə fəaliyyət göstərmələri
E) Tikinti materialı kimi kirəmitdən istifadə

64. Rəqəmlərdən hansılarının yerini dəyişdikdə hadisələrin düzgün xronoloji ardıcıllığı alınar:

| | |
|---|---|
| 1 | Albaniyada ilk xristian icmalarının yaranması |
| 2 | II Vaçenin azadlıq hərəkatının başa çatması |
| 3 | I Qoçaq Vaçaqanın Albaniyanın bütün vilayətlərini birləşdirməsi |
| 4 | Aquendə kilsə məclisinin çağırılması |

A) 1 və 2 B) 1 və 4 C) 2 və 3
D) 2 və 4 E) 1 və 3

65. *III Fəzlin dövründə Səlcuq dövləti ilə münasibətlər kəskinləşdi. Səlcuq türkləri bu dövlətin müstəqilliyini özləri üçün təhlükə hesab edirdilər. Ona görə də I Məlikşah sərkərdəsi Buğanı qoşunla göndərdi. Paytaxt şəhər tutuldu və dövlətin tarixi sona çatdı.*
Bəhs olunan feodal dövləti ilə Şirvanşahlar dövləti üçün oxşar cəhətdir:
A) Eyni əsrdə meydana gəlmələri
B) Bakının paytaxt şəhər seçilməsi
C) Azərbaycan torpaqlarının vahid halda birləşdirilməsi
D) Azərbaycanın şimal torpaqlarında meydana gəlmələri
E) Dərbənd səddinin təmir edilməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam

66. Romanın padşahlıq , respublika və imperiya dövrləri üçün ümumi cəhətdir:
A) Senatın mövcud olması
B) Konsulların ordu komandanı olmaları
C) Xalq tribununun seçilməsi
D) Vəzifəyə görə əmək haqqının verilməsi
E) Qladiator döyüşlərinin keçirilməsi

67. Uyğunluğu müəyyən edin:




A) 1,4 B) 2,3 C) 3,6
D) 1,5 E) 2,4

68. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a. Varaz Qriqorun hakimiyyətdə olması
b. Ərəb-Xəzər müharibələrinin baş verməsi
c. Muğan əhalisinin ərəblərin hakimiyyətini qəbul etməsi
d. Ərəblərin Xəzər şəhəri Bələncəri tutması
A) 1-c; 2-d; 3-a,b
B) 1-d; 2-c; 3-a
C) 1-a; 2-c; 3-d
D) 1-a,c; 2-b; 3-d
E) 1-a,c; 2-d; 3-b

69. Xürrəmilər ilə vuruşan ərəb qoşunlarının baş komandanı Afşin Heydər ibn Kavusun fəaliyyəti dövrünə uyğun gəlir:
A) Xürrəmilərin Həşdadsər dağı yaxınlığında qələbə qazanması
B) Həmədan yaxınlığında Xürrəmilərin məğlub olması
C) Cavidan və Əbu İmran arasında ədavətin hökm sürməsi
D) Savalan dağı yaxınlığında Ərəblərin məğlub olması
E) Xəzərlərin arası kəsilməyən yürüşlərinə son qoyulması

70. Verilən xüsusiyyətlərin aid olduğu şəhəri müəyyən edin:
*- IX əsrin ikinci yarısında Məzyədilərin iqamətgahı buraya köçürülmüşdür.*
*- Fəzl ibn Məhəmməd tərəfindən ətrafındakı feodal mülkləri ləğv edilmişdir.*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

71. Didqori döyüşünün nəticəsində:
A) Cəfərilər sülaləsi hakimiyyəti ələ keçirdi
B) Tiflis müsəlman əmirliyi ləğv edildi
C) Tiflis şəhəri Şərqi Gürcüstanda Ərəb əmirliyinin mərkəzinə çevrildi
D) Dəbil şəhəri Şəddadilərin əlinə keçdi
E) Salari hökmdarı İbrahimin naibi Gəncədən qovuldu

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/BirlikTeam1

72. "Ulu icma" adlanan birliklərin mövcud olmasının səbəbləri:
1. İnsanların qan qohumluğu əsasında birləşməsi
2. Gündəlik tələbatların ödənilməsi ehtiyacı
3. Vəhşi heyvanlara qarşı birgə mübarizə
4. Anaxaqanlığının hakim olduğu birgəyaşayışın mövcud olması
5. Birgə əkinçilik fəaliyyətlərinin mövcud olması
A) 1,2 B) 3,5 C) 1,4
D) 2,3 E) 2,5

73. Hadisə və nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| A) | Nomlar arasında daimi rəqabətin aparılması | Vahid Misir dövlətinin yaranması |
| B) | I Tutmosun işğalçılıq müharibələrini genişləndirməsi | Misirin zəifləyərək ərazilərinin bir qismini itirməsi |
| C) | Kadeş müqaviləsinin imzalanması | şimal və cənubi Suriyanın hetlərdə qalması |
| D) | Akkadların başçısı Sarqonun Şumer şəhər-dövlətlərini işğal etməsi | Dünya tarixinin ilk imperiyasının yaranması |
| E) | Kutilərin Mesopotamiyanı idarə etməyə başlaması | Şumer şəhər-dövlətləri arasında müharibələrin başlanması |

74. Xəritədə qara rənglər ilə verilmiş ərazilərin e.ə II minillik tarixi üçün oxşar cəhəti müəyyən edin:



A) Yadelli tayfaların yürüşünə məruz qalması
B) Vahid dövlətin qurulması
C) Şəhər-dövlətlərin meydana gəlməsi
D) Makedoniya imperiyasının yürüşünə məruz qalması
E) Əhəmənilər ilə mübarizənin aparılması

75. Salari dövlətinin hökmdarını müəyyən edin:
A) Deysəm
B) Mərzban ibn Məhəmməd
C) Ləşkəri ibn Məhəmməd
D) Əbülhica
E) Əbu Sac Divdad

76. Afina və Sparta arasında baş vermiş e.ə 431 - 404-cü il müharibəsinin səbəblərindən biri idi:
A) Afinanın Əhəmənilərə məğlub olması
B) Yunanıstanın şimalında Makedoniya dövlətinin yaranması
C) Torpağa görə bütün borcların ləğv edilməsi
D) Afinada tiranlığın yaranması
E) Demokratiya və Oliqarxiya sistemləri arasında ziddiyyətlər

77. Son feodalizm dövrü üçün xarakterikdir:
A) Avropada XI – XV əsrləri əhatə etmişdir
B) Şərqdə XIX əsrə qədər davam etmişdir
C) Həm də inkişaf etmiş və ya klassik feodalizm dövrü adlanır
D) Kəndlilər yalnız təhkimli kəndlilərdən ibarət idi
E) Feodallar vergiləri yalnız məhsul ilə alırdılar

78. Uyğunluğu müəyyən edin:




A) 1-a; 2-b B) 1-a,b; 2-b,c
C) 1-b; 2-a,b D) 1-b,c; 2-a,b
E) 1-b; 2-c

79. Göytürk və Xəzər xaqanlıqları üçün oxşar cəhətdir:
A) Hakim sülalə Aşina sülaləsindən idi
B) Paytaxtı Ötükən şəhəri idi
C) Slavyan hücumu nəticəsində süquta uğramışdır
D) Musəvilik dövlət dini elan edilmişdir
E) Çin asılı hala salınmışdır

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
TimeBirlikTeam1

80. "Rəşidi xəlifələr" dövrünə *aid* ***deyil:***
A) Vestqotların məğlub edilməsi
B) Məkkə və Mədinənin paytaxt kimi fəaliyyət göstərməsi
C) Sasani dövlətinin süquta uğradılması
D) Xəzər xaqanlığının orduları ilə toqquşmalar
E) Ərəbistan yarımadasının tamamilə fəth edilməsi

81. Əməvilər sülaləsi dövründən fərqli olaraq Abbasilər sülaləsi dövründə:
A) Torpaqdan istifadə müqabilində xərac vergisi alınırdı
B) Hakimiyyətə qarşı narazılıqlar mövcud idi
C) Franklar ilə mübarizə aparılırdı
D) Xəlifələr türk hərbi başçılarından asılı vəziyyətə düşürdü
E) Pul vahidləri kimi, qızıl dinardan və gümüş dirhəmdən istifadə olunurdu

82. Sasani dövləti ilə müharibələr aparmışdır:
1. Xlodviq
2. Böyük Karl
3. Yustinian
4. Xəlifə Mötəsim
A) Yalnız 3 B) 1,2 C) 3,4
D) Yalnız 4 E) 1,3

***Açıq tipli test sualları:***

83. Pompeyin Albaniya ilə münasibətləri üçün xarakterikdir:
1. Padşah Oroys ilə döyüş
2. Sülh bağlanması
3. Qanıx döyüşündə məğlub olması
4. Sərkərdə Kozisin məğlub edilməsi
5. Kür çayı sahilində məğlub olması

84. IX əsrə aiddir:
1. Uyğur xaqanlığında Qırğızların üsyanı
2. Qaraxanlı dövlətinin yaradılması
3. Qutluq xanın Göytürk dövlətini bərpa etməsi
4. Xəzər xaqanlığının süquta uğraması
5. Sultan Mahmud Qəznəlinin Hindistana yürüşləri

85. Müsafirin rəhbərlik etdiyi hərəkat ilə Xürrəmilər hərəkatı üçün oxşar cəhətdir:
1. Ərəb ağalığından azad olmağa çalışmaları
2. VIII əsrdə başlanması
3. Abbasilərin hakimiyyəti dövründə başlaması
4. Albaniya dövlətinin mövcud olduğu dövrdə baş verməsi

86. Kuti və Lullubi dövlət qurumları ilə Manna dövləti üçün ümumi cəhətlər:
1. Akkad hökmdarları ilə mübarizə
2. E.ə III minillikdə meydana gəlmələri
3. Assuriyaya qarşı aramsız mübarizə
4. Çoxtanrılığın mövcud olması
5. Mixi yazı növündən istifadə

87. Uyğunluğu müəyyən edin:
1. Slavyanların 909-cu il yürüşü
2. Slavyanların 914-cü il yürüşü
3. Slavyanların 944-cü il yürüşü
a. Salari qoşunu məğlub edildi.
b. Qənimət və əsirlərin bir hissəsi Xəzər xaqanına verildi
c. Abaskun adası qarət edildi
d. Alanlar və sərirlər slavyanlar ilə ittifaqda idilər

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları cavab vərəqində yerinə yetirin.***

Ət-Təbəri deyir: Nuaym ikinci dəfə Həmədanı tutduqdan sonra Vacruddan Reyə yola düşdü. Ömər ona yazdı ki, o sərkərdə Bukayr ibn Abdallahın köməyinə Azərbaycana yeni qüvvələr göndərsin. Nuaym Reyi ələ keçirənədək kömək göndərilməsini uzatdı, ancaq bundan sonra Simak adlı sərkərdə Bukayrın yanına, Azərbaycana yola düşdü... Bukayr əmr alan kimi yürüşə başladı. Cərmidan həndəvərində gözlənilmədən Vacruddan qaçan Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzadla üzləşdi. Azərbaycan ərazisində Bukayrın ilk döyüşü baş verdi. Döyüş başlandı.Allahın köməkliyi ilə İsfəndiyarın qoşunu qaçmağa üz qoydu. Bukayr İsfəndiyarı əsir tutdu... Bir neçə qaladan başqa, ölkə bütünlüklə onun əlinə keçdi...

88. Tarixi biliklərinizə əsasən mənbədə bəhs olunan döyüşün baş verdiyi ili qeyd edin:

89. Mənbədə bəhs olunan məğlubiyyətin nəticəsində bağlanmış müqavilənin şərtlərini tarixi biliklərinizə əsasən müəyyən edin:

90. Mənbədə bəhs olunan illərdə Ərəblərin Azərbaycana ilk yürüşünün mənbədə bəhs olunmayan nəticələrini tarixi biliklərinizə əsasən müəyyən edin (azı iki nəticə):

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı
T.me/Birlik Team1

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BilikTeam1